**s.e.f.d Rza Rizvan oğlu AXUNDOV**
**Qərbi Kaspi Universiteti**
**E-mail:** rzakhundov@gmail.com

# BEYNƏLXALQ VƏ REGİONAL AKTYORLARIN CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ

**Xülasə**

Bu araşdırmada Cənubi Qafqaz ölkələrinin yaşadığı problemlər və onların həlli prosesinə fəal təsiri olan beynəlxalq və regional aktorların roluna toxunulub. Tədqiqatda beynəlxalq və regional aktorların Sovet İttifaqının dağılmasından sonra müstəqillik əldə etmiş üç Cənubi Qafqaz ölkəsi olan Azərbaycan, Gürcüstan və Ermənistana qarşı apardıqları siyasət müzakirə edilmiş və bu siyasət xüsusilə təhlükəsizlik baxımından qiymətləndirilmişdir.

**Açar sözlər:** Cənubi Qafqaz, təhlükəsizlik, beynəlxalq aktyorlar, regional aktyorlar.

UOT: 811.111.
DOİ: 10.54414/TUWO6295

## Giriş

Cənubi Qafqaz regionu şərq-qərb istiqamətində Anadolu vasitəsilə Mərkəzi Asiyanı Avropaya, şimal-cənub istiqamətində isə Rusiyanı Fars körfəzinə birləşdirdiyinə görə tarix boyu hər zaman geosiyasi əhəmiyyət kəsb edib. Rusiya, Osmanlı İmperiyası və İran 19-cu əsrdə bölgə üzərində hökmranlıq uğrunda mübarizə aparırdılar. Bu gün isə regiona geosiyasi/geoiqtisadi əhəmiyyət verilməsinin əsas səbəbi Xəzər regionunun tranzit dəhlizi olmasıyla yanaşı, dünyada əsas neft və təbii qaz hasil edən ərazilərdən biri olmasıdır. Postsovet dövründə Cənubi Qafqaz qeyri-sabit və münaqişələrlə bağlı region kimi şöhrət qazanıb. Bölgədə bu post-sovet dövründə dövlət quruculuğu prosesini dövlətdaxili və dövlətlərarası münaqişələr müşayiət etmişdir. Regiona qonşu olan və regiondankənar aktorlar da müxtəlif səviyyələrdə bu münaqişələrə maraq göstəriblər. Sovet İttifaqının dağılması zamanı başlayan münaqişələr zaman-zaman aktiv fazaya keçsə də bir müddət sonra münaqişəyə son qoyulub, lakin daimi həll yolları tapılmayıb. Ona görə də onları "dondurulmuş münaqişələr" adlandırırlar. Dondurulmuş münaqişələr, regional sülh və təhlükəsizliyi təhdid etməklə yanaşı başda enerji təhlükəsizliyi olmaqla bir çox iqtisadi, ictimai sahələri də təhdid edir. Bu baxımdan bölgəyə qonşu olan regional aktyorların və bölgədə maraqları olan beynəlxalq aktyorların mövqeyi önəmlidir.

Bu araşdırma Cənubi Qafqazda təhlükəsizlik və iqtisadi əməkdaşlıq baxımından aktorların rolunu və maraqlarını tədqiq etmək üçün onları iki başlıqda ələ alır: Regiona qonşu olan ölkələr (Rusiya, İran Türkiyə, İsrail) və regiondan kənarda olan beynəlxalq aktyorlar (ABŞ, Avropa İttifaqı, Çin).

## 1. Regiona qonşu olan ölkələrin rolu

### 1.1. Rusiya

Cənubi Qafqazda bütün problemlərin həlli prosesində region dövlətlərinin üzləşdiyi regional güc Rusiyadır. Rusiyanın Yeltsin dönəmindən başlayaraq Putin dönəmində davam edən Cənubi Qafqaz siyasəti dəyişən dünya konyunkturaları ilə paralellik təşkil edir. Xüsusilə, Putin dönəmində bütün dünyada təsirli olan enerji siyasəti ilə paralel olaraq Qərb dünyası tərəfindən Azərbaycanın diqqətə alınması Rusiyanın nəzərindən yayınmayan məsələdir (Tchantouridze, L. 2008, s.3.). Digər bir məsələ isə xüsusilə Avropadan bölgəyə qoyulması planlaşdırılan xarici sərmayənin ancaq bölgənin təhlükəsizliyinin təmin olunduğu təqdirdə tam şəkildə və effektiv həyata keçəcəyidir. Rusiya xüsusilə (Dağlıq) Qarabağ məsələsində münaqişənin həlli ilə bağlı tərəflər arasında gərginliyi yüksək səviyyədə saxlayır. Azərbaycan isə Rusiya ilə üz-üzə gəlmədən,

Rusiyanın da iştirakı ilə sülh prosesini həyata keçirmə istiqamətində siyasət yeridir.

Cənubi Qafqaz ölkələrindən biri olan Gürcüstan Qara dənizdəki sahil xəttinə görə Rusiya tərəfindən ən çox sıxışdırılan ölkədir. Xüsusilə 2008-ci ildəki müharibədən əvvəl Rusiya donanmasının gəmiləri 2006-cı ildə Gürcüstan sərhədinə 16 mil qədər yaxınlaşmışdı (Socor V., 2006). Gürcüstana bu yolla təsir etməyə çalışan Rusiya zaman-zaman siqnal verir ki, Ermənistan və Azərbaycan da İranla ticarət yollarını bağlaya bilər. Cənubi Qafqazla bağlı bu siyasət hər üç administrasiyada - Yeltsin, Medvedev, Putində dəyişməyib. Hər üç ölkə arasında Gürcüstan və Azərbaycan daha çox Qərb istiqamətində siyasət yürüdürlər. Bu vəziyyət Rusiyanın regionda təsirinin azalacağı təqdirdə Rusiyanın daha aqressiv mövqe sərgiləməsinə səbəb ola bilər. Çünki SSRİ dağılandan bəri Rusiya regiona - xüsusilə də Gürcüstana ən az təsir göstərə biləcəyi bir dövr yaşayır (Nixey J., 2012). Rusiya 2008-ci ildə ictimaiyyətdə yaratdığı aqressiv ölkə təsəvvürünü bölgədə tətbiq etdiyi "yumşaq güc"lə ortadan qaldırmağa çalışsa da 2021-ci ilin fevralında Ukraynaya qarşı aqressiyası bu cəhdləri boşa çıxartdı. Bölgədəki dövlətlərə təsiri azalsa da, bölgədəki azlıqlara təsiri əksinə artıb. O, Cənubi Osetiya və Abxaziya regionları ilə bağlı mümkün sülh proseslərində Gürcüstan dövləti qarşısında münaqişə tərəfi kimi görünür (Nixey J., 2012). Eyni vəziyyət (Dağlıq) Qarabağ münaqişəsində də qüvvədə qalır. Ermənistanın ən böyük maliyyə dəstəkçisi, hərbi və maliyyə tərəfdaşı olmaqla yanaşı, Rusiya Azərbaycanın (Dağlıq) Qarabağ bölgəsindəki erməni əsilli vətəndaşların inteqrasiyası məsələnində də Azərbaycanın yeritdiyi siyasətin əleyhinədir. Bununla yanaşı, Putin 2003-cü ildə İlham Əliyevlə görüşən ilk liderlərdəndir və o, diplomatiya kanallarını açıq saxlamaqla regionun problemlərinə təsirini həmişə yüksək səviyyədə saxlamaq istəyir.

Nəticə etibarı ilə, şübhəsiz ki, Cənubi Qafqazda sülhün olması üçün Rusiya da bu istiqamətdə münasibət sərgiləməlidir. Xüsusilə son illərdə Putinin dünya siyasətində gövdə göstərişinin artması regionda da özünü göstərir. Dünyada yaşanan digər problemlərdən və bütün dünyanın diqqətini Qafqaza yönəltməsindən ən çox narahat olan ölkə Rusiyadır. Bölgədəki üç dövlətin hazırda yaşadıqları iqtisadi və diplomatik problemlərlə bağlı Qərbin aktiv siyasət yürütməsi Rusiyanın təsirinin azalacağını düşünməyə vadar etsə də gələcəkdə etnik münaqişələrin və regionun enerji xətlərinin rolunun Rusiyanın regiona münasibətdə xarici siyasətinə necə təsir edəcəyini proqnozlaşdırmaq mümkün deyil.

**1.2. İran**

Müsəlman ölkəsi olmasından və Azərbaycanla tarixi bağlılığından asılı olmayaraq, İranın Ermənistanla münasibətləri həmişə müsbət inkişaf edib. Həm İranın, həm də Azərbaycanın neft ixrac edən ölkə olmasının və iqtisadi yarışın olmasının buna böyük təsiri var, lakin vəziyyət bu qədər sadə izah edilə bilməyəcək qədər mürəkkəbdir. Xüsusilə rəsmi Tehran Azərbaycana qarşı Ermənistanı dəstəyini əsirgəməyib. 2001-2002-ci illərdə Xəzər dənizində mübahisəli neft yatağının olması nəticəsində Bakı ilə Tehran arasında gərginlik yaşanıb.( Tchantouridze L., 2008, s.9.) 1990-cı illərdən bəri Ermənistanla müsbət əlaqələr saxlayan İran hökuməti Ermənistan hökumətini maliyyə cəhətdən də dəstəkləyir. Xüsusilə də İrandan gedən könüllülər Ermənistanın tərəfindən Qarabağ müharibəsində iştirak ediblər.

Digər tərəfdən İran əhalisinin tərkibində azərbaycanlılar mühüm yer tutur. İranın belə bir daxili quruluşa baxmayaraq, niyə Ermənistanın tərəfində olması sualına müxtəlif cavablar var. 2001-ci ildə İran Azərbaycanın hava məkanında və neft yataqlarında təcavüzkar diplomatiya aparıb. İqtisadi maraqlardan qaynaqlanan bu insidentdə Xəzəri İranın uzantısı kimi görən Tehran 20%-nin özünün olduğunu iddia etmişdi. Eyni vəziyyət 2007-ci ilin noyabrında da təkrarlanmışdı. İstər 1-ci, istərsə 2-ci Qarabağ müharibəsində, istərsə də Azərbaycanın qələbəsindən sonrakı sülh quruculuğu cəhdləri zamanı İranın belə gərginliyi hədəfləyən siyasəti daha açıq desək, İranın əhəmiyyətli bir hissəsini təşkil edən Azərbaycan türklərinə nəzarəti təmin etmək və bu bölgədə kimin söz sahibi olduğunu vurğulamaq İranın əsas məqsədlərindəndir.

Gürcüstana təsir edən problemlərə gəlincə, İran bu istiqamətdə heç bir addım atmır. Bu

məsələyə Rusiyanın Gürcüstana, İranın Azərbaycana təzyiqi kimi regional paylaşma kimi də baxmaq olar. Ümumiyyətlə, Rusiya və İranın bölgədəki fəaliyyətinin və problemlərin həllində göstərdikləri münasibətinin bölgənin təhlükəsizliyinə və sülhün bərqərar olmasına deyil, daha çox mövcud təsir imkanlarını qorumağa və artırmağa yönəldiyini unutmaq olmaz (Tchantouridze L., 2008, s.9.).

**1.3. Türkiyə**

SSRİ-nin dağılması ilə bölgədə nizamlı işləyən ikiqütblü sistem qeyri-müəyyənliklərlə əvəz olundu və bu da Türkiyənin kiçik və qeyri-sabit qonşularla üz-üzə gəlməsi ilə nəticələndi. Birdən-birə periferik mövqedən mərkəzi mövqeyə keçən və bölgənin güclü aktorlarından birinə çevrilən Türkiyə, regional hadisələrə qarışmamaq siyasətinə və daxilə istiqamətlənən siyasətə son qoyaraq daha aktiv siyasət yürütməyə başladı. Bununla belə, regiondakı qeyri-müəyyənlik mühiti özü ilə yeni təhdid və riskləri də gətirəcəkdi. Geostrateji mövqeyi Türkiyənin ikiqütblü sistemin çökməsi nəticəsində bölgədəki güc boşluqlarını doldurmaq istəyən ölkələr arasında rəqabətdə mühüm rol oynamasına səbəb olmuşdur. Rusiyanın bölgədəki təsirinin yenidən artmasını istəməyən Qərb dövlətləri Türkiyənin bölgədəki fəaliyyətlərini dəstəklədilər (Özkan, 2010, s. 121). Qafqazın geosiyasətində və geoiqtisadiyyatında mühüm dövlətlərdən biri olan İran, regional gücünə görə Türkiyəni təhlükə olaraq görür və həyata keçirdiyi siyasətlərdə Rusiyadan dəstək alır. Rusiya və İran isə Türkiyənin Avropa İttifaqı və NATO-nun yanında yer almasını ABŞ-ın Qafqaza nüfuz etməsində mühüm amil hesab edir və bu səbəbdən də sərt reaksiya verirlər. Ermənistanın Rusiya və İran meylli siyasəti, Gürcüstanın ABŞ və Türkiyə meylli siyasəti, Azərbaycanın isə iki tərəf arasında balans siyasətini həyata keçirməsi özəlliklə önə çıxır. Türkiyə Azərbaycan və Gürcüstanla enerji sahəsində əməkdaşlıq etdiyi halda, (Dağlıq) Qarabağ münaqişəsi səbəbindən Ermənistana qarşı daha ehtiyatlı siyasət yürütmüşdür (Topal, 2015, s. 970). Regionda donmuş problemlərin canlanması iqtisadiyyat və təhlükəsizlik də daxil olmaqla bir çox sahələrdə qeyri-sabitliyin artmasına səbəb olub. Bu vəziyyət Türkiyənin region ölkələri ilə müxtəlif sahələrdə, xüsusilə ticarət və enerji sahələrində əlaqələrini inkişaf etdirməsinə mane olmuşdur. (Tüysüzoğlu, 2017, s.194) İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin müdrik siyasəti, vətəndaşların hərtərəfli dəstəyi və canları bahasına Vətəni işğaldan xilas etməyi qarşısına məqsəd qoyan qəhrəman Azərbaycan əsgərlərinin mübarizəsi ilə qələbə ilə başa çatıb. Bu prosesdə Türkiyə Cümhuriyyəti beynəlxalq ictimaiyyətə Azərbaycan dövlətinin Cənubi Qafqaz bölgəsində beynəlxalq aləmdə tək olmadığını, həm də özünün bu bölgədə güclü bir aktor olduğunu nümayiş etdirdi.

**2. Regiondan kənar beynəlxalq aktyorların rolu**

**2.1. ABŞ**

ABŞ-ın Mərkəzi Asiya və Qafqazla bağlı siyasətini müəyyən edən ən mühüm amil onun iqtisadi maraqlarıdır. ABŞ-ın regionla bağlı xarici siyasətində neft və təbii qaz ən mühüm yer tutur. ABŞ regionun zəngin neft və təbii qaz ehtiyatlarının istismarına və Qərb bazarlarına stabil və təhlükəsiz çatdırılmasına həm iqtisadi, həm də siyasi əhəmiyyət verir. Xəzərin enerji ehtiyatlarının istismarı və nəqli ilə yanaşı, regionun strateji mövqeyi və Mərkəzi Asiyaya giriş qapısı olması Cənubi Qafqazı ABŞ üçün mühüm edir. Qafqaz ABŞ üçün özlüyündə dörd bir-biri ilə əlaqəli olan məqamda vacibdir: Rusiya Federasiyasının regional siyasəti, İranın regional siyasəti, enerji resursları və terrorla mübarizə. Soyuq müharibədən sonra Qafqaz regionunda Rusiya ilə güc mübarizəsinə girən ABŞ bu məsələdə təsirli olmaq üçün qərbyönlü siyasət yürüdən və Rusiyanın təzyiqindən yayınmağa çalışan Azərbaycan və Gürcüstanla sıx əlaqələr qurdu, Qafqazda və Orta Asiyada Rusiyanın təsirini azaltmağa çalışdı. Eyni zamanda, Cənubi Qafqaz ABŞ-ın İranı cilovlama siyasəti baxımından strateji əhəmiyyət kəsb edir (Malek, M., 2008, p.34-35).

ABŞ regional rəqibləri olan Rusiya və İranı zəiflətmək siyasətində Azərbaycanı öz tərəfinə çəkmək istəyir. Ağ Ev üçün ən vacib məsələ İraillə Azərbaycan arasında yaxşı münasibətlərin davam etdirilməsidir. Bu əlaqələr Vaşinqton tərəfindən Bakı ilə münasibətləri asanlaşdıran amil kimi qəbul edilir. Bundan əlavə, ölkənin qaynar münaqişə

zonalarına yaxınlığı ABŞ-ı Azərbaycanla qeyri-qanuni transmilli fəaliyyət, qaçaqmalçılıq və beynəlxalq cinayətkarlıqla mübarizə kimi bir çox sahələrdə əlaqələrini gücləndirməyə sövq edir. Bakını enerji tərəfdaşı kimi görən Vaşinqton Xəzərin enerji bazarının inkişafı üçün ciddi səylər göstərir. Bu gün Vaşinqtonun nəzərində Bakı Avropa İttifaqının enerji təhlükəsizliyində Rusiya Federasiyasına qarşı balansı təmin edə biləcək bir aktyordur (Shiraliyev M., 2023, s.16).

Lakin ABŞ-ın (Dağlıq) Qarabağda müharibə başlayandan bəri ATƏT-in Minsk qrupunun həmsədri olmasına baxmayaraq, passiv rol oynaması onu göstərir ki, Vaşinqton görüşündən heç bir irəliləyiş gözləmək olmaz. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli formatda görüşməməsi də onu göstərir ki, Amerika administrasiyası müharibə edən tərəflərin mövqelərindəki boşluğu doldurmağa böyük ümidlər bəsləmir (Shiraliyev M., 2023, s.18). Bu üç ölkə regionda böyük geosiyasi dəyişikliklərin baş verdiyi bir dövrdə çox fərqli xarici siyasət marşrutları ilə gedir. Gürcüstan Avroatlantik inteqrasiya yolu ilə qətiyyətlə gedir, mümkün qədər Rusiyadan uzaqlaşmağa çalışır. Rusiyayönlü qüvvələrin dominantlığı və qərbyönlü hakimiyyətin təzyiqi altında Ermənistan hər iki düşərgədə - Rusiya və Qərbdə münasibətlərin saxlanmasına yönəlmiş kursa xidmət etməyə çalışır. Azərbaycan həm Rusiyanı, həm də Qərbi öz nəzarətində saxlamaq istəyir və eyni zamanda hər ikisi ilə məsafə saxlamağa çalışır. Çətin ki, ABŞ Cənubi Qafqaz dövlətlərinin geosiyasi vəziyyətini dəyişə bilsin. Bununla belə, o, öz səylərini və köməyini bu ölkələrin daxili problemlərinin aradan qaldırılmasına və xarici problemlərə qarşı dayanıqlığının artırılmasına yönəldə bilər (Shiraliyev M., 2023, s.22).

### 2.2. Avropa İttifaqı

Cənubi Qafqaz regionundakı münaqişələri digər münaqişələrdən fərqləndirən cəhəti onların təkcə dövlətdən deyil, həm də xalqdan qaynaqlanmasıdır. Bu səbəbdən bölgədə təhlükəsizlik problemləri, terrorizm, mütəşəkkil cinayətkarlıq və regionun qeyri-qanuni tranzit dəhlizləri ehtimalı artır. Bu nöqtədə, Avropa İttifaqı (Aİ) bölgənin bu təhlükəsizlik zəifliyi problemini həll etmək, xüsusən də münaqişələrə həll yolları tapmaq və ya vasitəçilik yolu ilə sülh danışıqlarına başlamaq məqsədi ilə bölgəyə cəlb edilmişdir (German, T., 2007, s.357). Avropanın bu işə qarışmasının əsas səbəbi Avropa ölkələrinin yeni təbii qaz və enerji ölkələri ilə müqavilələr bağlayaraq Rusiyadan asılılığını azaltmağa çalışmalarıdır. Belə bir axtarışda keçid marşrutunda olan Azərbaycan və Gürcüstan ön plana çıxır. Ermənistanı bu kontekstdə yerləşdirmək olmaz; Çünki Dağlıq Qarabağ münaqişəsinin hələ də sülh müqaviləsilə nəticələnməməsi, Azərbaycanla hər hansı diplomatik əlaqənin olmaması Ermənistanı regional böyük layihələrdən kənarda qoyur. Cənubi Qafqaz ölkələrinin üzvlüyünə gəlincə, Aİ nəzarətsiz genişlənmənin tərəfdarı deyil, Balkanlarda etdiyi səhvi təkrarlamaq istəmir (German, T., 2007, s.358).

Nəticədə Aİ regiona ilk növbədə Rusiyadan asılılığını azaltmaq üçün daxil olmaq istəyirdi. Daha sonra o, problemlərin həlli istiqamətində münaqişələrdə irəliləyiş əldə edə biləcəyi fikri ilə bu mövzuda siyasi mövqe ortaya qoydu. Tərəfləri eyni masaya yığmağa nail olsa da, məsələləri həll etmək hələ də mümkün olmayıb. İqtisadi baxımdan Aİ-nin ən çox qazandığı və qazandırdığı ölkə, şübhəsiz ki, Azərbaycandır. Davam edən boru kəmərləri və elektrik enerjisi ixracatı layihəsi ilə bu ticarət həcminin daha da artacağı gözlənilir.

### 2.3. Çin

Cənubi Qafqaz əhalisinin nisbətən az olduğu və xammal istehsalının məhdud olduğu bir bölgə olduğundan bazar və xammal mənbəyi kimi Çinə çox da böyük potensial təqdim etmir. Çinin Xəzərin enerji ehtiyatlarına və bölgənin strateji mövqeyinə görə bölgəyə maraq göstərdiyi düşünülür (Rolland, 2018, s. 5-7). Cənubi Qafqaz dövlətləri Çinin yaratmaq istədiyi Kəmər və Yol Təşəbbüsünə (KYT) böyük maraq göstəriblər. Çinin nəqliyyat əlaqələrini maliyyələşdirmə öhdəliyi, Çinlə ikitərəfli ticarət və Çinin birbaşa investisiyaları və bu investisiyalar üçün siyasi şərtlər irəli sürməməsi marağın əsas səbəbləri arasındadır. Xülasə, regional dövlətlər üçün KYT ən azı qısa və ortamüddətli perspektivdə iqtisadi motivli təşəbbüsdür (Zabahidze et al., 2019, s. 3-5).

Ümumilikdə KYT-nin əsas iqtisadi xarakter daşıyan layihə kimi görünməsi onun Cənubi Qafqazda sülh və əmin-amanlığa yardımçı təsir göstərəcəyinə dair gözləntiləri gücləndirir. Regional dövlətlər yuxarıda qeyd edildiyi kimi KYT-də iştirak etməyə hazırdırlar. Bölgədə nüfuzlu xarici aktorlar olan ABŞ və Aİ-nin Çinlə bağlı şübhələrinə baxmayaraq, orta dəhlizə xüsusi etiraz etmədiyi, hətta bəzi baxımdan onu təşviq etdiyi görülməkdədir (Starr, 2019, s. 84, 87). Rusiyada rəsmi dairələr ümumiyyətlə KYT-ni strateji məqsədləri olmayan iqtisadi motivli təşəbbüs kimi görürlər (Rolland, 2019, s. 12-13). Rusiyanın bu münasibəti həlledici əhəmiyyət kəsb edir. Çünki o, Avrasiyada əsas güclərdən biridir və Cənubi Qafqazda isə önəmli güclərdən biri olaraq bu layihəni təhlükə kimi qiymətləndirmir. Çin dövlətinin Cənubi Qafqaz ölkələri baxımından ən önəmli siyasi mövqeyi isə onun etnik və ərazi münaqişələrinə ölkələrin ərazi bütövlüyü çərçivəsindən yanaşmasıdır.

**Nəticə**

Cənubi Qafqaza təsir edən problemlərin həllinə regiondankənar və regional aktorların təsirlərini araşdıran bu araşdırma SSRİ-nin dağılmasından sonra regiondakı münaqişələrin regional təhlükəsizlik və sülhə ən böyük maneə olduğunu ortaya qoyur. Xüsusən də 21-ci əsrin əvvəllərindən etibarən yenidən gündəmə gələn üç ölkənin geosiyasi əhəmiyyəti Rusiyanın yenidən güclü aktor kimi ortaya çıxması ilə paralellik təşkil edir. Xüsusən də Gürcüstandakı etnik münaqişələrdə ən çox təsir imkanına malik aktor Rusiyadır. Əslində, 2008-ci ildəki müharibədə bu gücün nümayişi həyata keçirildi və Rusiyanın daha çox münaqişə tərəfi olduğu görüldü. Rusiyanın Ermənistanla Azərbaycan arasındakı problemlərə münasibəti daha balanslıdır. Hər iki ölkə üzərində təsirini qoruyub saxlamağa çalışmasının səbəbi isə bu iki ölkənin başqa bir aktorla əməkdaşlığının uzunmüddətli perspektivdə Rusiya üçün daha zərərli olacağı düşünülməsidir. Təsirlərini görmək üçün AB və ABŞ-ın təsiri altında olan qeyri-regional aktorları iki ayrı əsas başlığa bölmək daha doğrudur. ABŞ-ın regiona marağının NATO vasitəsilə olması Rusiya ilə birbaşa qarşıdurmanın qarşısını alır. Eyni vəziyyət Aİ və Cənubi Qafqaz münasibətlərinə də aiddir.

Rusiya və Türkiyəni bir kənara qoysaq, İranın problemlərə təsiri nisbətən daha məhdud olaraq qalır. İran müsəlman şiə dünyasının liderliyini öz üzərinə götürsə də, Ermənistanla aktiv iqtisadi əlaqələrini onun diplomatik ənənəsinin göstəricisi kimi izah etməyə çalışsa da bu "ənənə" Azərbaycana qarşı zaman-zaman düşmən münasibət sərgiləməsinin qarşısını almır. Təbii ki, bu vəziyyətin səbəblərindən biri Xəzərin Azərbaycanla paylaşılmasının yaratdığı problemlərdən qaynaqlanır. Ancaq göz ardı edilməməsi gərəkən önəmli bir faktor da İranın əhəmiyyətli bir hissəsini təşkil edən Azərbaycan türklərinə nəzarəti təmin etmək və bu bölgədə kimin söz sahibi olduğunu vurğulamaq istəyidir.

Türkiyənin isə fərqli vəziyyəti mövcuddur. Onun Azərbaycanla münasibətləri Ermənistanla mümkün əlaqələri qabaqlayır. Azərbaycanla "qardaş ölkə" olması mövcud və planlaşdırılan iqtisadi sərmayələrdə Türkiyəyə fayda versə də, münaqişələrin həllində vasitəçilik etməsinə mane olur. Bu baxımdan Azərbaycanla çox yaxın və günü-gündən dərinləşən, Ermənistanla isə demək olar ki, sıfır diplomatik münasibətləri olan Türkiyənin Gürcüstanla münasibətləri sabit xətlə davam edir.

## ƏDƏBİYYAT SİYAHISI

1. German, T. (2007) 'Visibly Invisible: EU Engagement in Conflict Resolution in the South Caucasus', European Study, vol.16, s.357-374.
2. Malek, M. (2008) 'NATO and the South Caucasus: Armenia, Azerbaijan and Georgia on Different Tracks', Summer Supplement 2008, s.31-52.
3. Nixey, J. (2012) 'The Long Goodbye: Waning Russian Influence in the South Caucasus and Central Asia', *Russia and Eurasia Programme, Chatham House,* (06.09.2023) https://www.chathamhouse.org/2012/06/long-goodbye-waning-russian-influence-south-caucasus-and-central-asia
4. Özkan, Gökhan. (2010). 2Soğuk Savaş Sonrası orta Asya ve Kafkasya Ekseninde Türkiye-NATO-Rusya İlişkileri ve Türk Dış Politikası'na Yansımaları". Gazi Üniversitesi

İktisadi ve İdari Bilimler Fakültesi Dergisi (12)1, 109-132.

5. Rolland, N. (2018). China's Ambitions in Eastern Europe and the South Caucasus. Russie Nei Visions, (112), s. 1-23.

6. Shiraliyev M., (2023), Amerika Birleşik Devletleri'nin Obama ve Trump Dönemi Güney Kafkasya Politikasında Güvenlik Faktörü,Kafkasya Calışmaları - Sosyal Bilimler Dergisi / Journal of Caucasian Studies Mayıs / May 2023, Yıl / Vol. 8, № 14, s-1-24.

7. Socor, V. (2006) 'Tbilisi Claims Russian Navy Holding Exercises off Georgian Coast', *Eurasia Daily Monitor*, Vol.3, no.194, (06.09.2023) https://jamestown.org/program/tbilisi-claims-russian-navy-holding-exercises-off-georgian-coast/

8. Starr, S. F. (2019). US Perspectives on China's Belt and Road Initiative in Central Asia and the South Caucasus. International Studies. 56(2-3), s. 79-91.

9. Tchantouridze, L. (2008) 'The Three Colors of War: Russian, Turkish and Iranian Military Threat to the South Caucasus', *Caucasian Review of International Affairs*, vol.2, no.1, p.3.

10. Topal, Coşkun. (2015). "Türkiye'nin Güney Kafkasya Politikası ve Ermenistan ile İlişkileri". Turkish Studies, Volume 10/2 Winter, 963-978.

11. Tüysüzoğlu, Göktürk. (2017). "Rusya Dış Politikası'nın Etkin Silahı: Donmuş Çatışma Bölgeleri". Güvenlik Stratejileri Yıl: 13 Sayı: 26, 185-219.

12. Zabakhidze, M., Gabriadze, I., Beradze, R. ve Khishtovani, G. (2019). Connectivity, Trade and Financial Integration of the South Caucasus Via the Belt and Road Initiative (BRI). Caucasus Analytical Digest, (111), s. 3-9.

**Rza Rizvan AXUNDOV**

## Impact of international and regionalactors on security in the South Caucasus

**Abstract**

In this study, the problems experienced by the South Caucasus countries and the effects of extra-regional and regional actors in the solutions of these problems were investigated. The study discussed the policies of international and regional actors towards the three South Caucasus countries, Azerbaijan, Georgia and Armenia, which gained their independence after the collapse of the Soviet Union, and these policies were evaluated especially from a security perspective.

**Keywords:** ***South Caucasus, Security, international actors, regional actors.***

**Рза Ризван АХУНДОВ**

## Влияние международных и региональных игроков на безопасность на Южном Кавказе

**Абстракт**

В этом исследовании были исследованы проблемы, с которыми сталкиваются страны Южного Кавказа, и влияние внерегиональных и региональных акторов на решение этих проблем. В исследовании обсуждалась политика международных и региональных игроков по отношению к трем странам Южного Кавказа – Азербайджану, Грузии и Армении, которые получили независимость после распада Советского Союза, и эта политика оценивалась особенно с точки зрения безопасности.

**Ключевые слова:** Южный Кавказ, безопасность, международные игроки, региональные игроки.

**Daxil olub:** 02.05.2023